**UOT: 821.512.161**

# XVII ƏSRİN MƏŞHUR TÜRKİYƏ MÜTƏFƏKKİRİ KATİB ÇƏLƏBİNİN HƏYATI VƏ ƏSƏRLƏRİ HAQQINDA

**Emiliya XƏLİLOVA***

**Açar sözlər**: *XVII əsr, Osmanlı, Katib Çələbi, mütəfəkkir, mühasib*

## *XÜLASƏ*

XVII əsrdə yaşamış Katip Çələbi biblioqrafiya, tarix, coğrafiya, şəriət, təsəvvüf, əxlaq, dövlət idarəçiliyi, hüquq, maliyyə, dənizçilik, ictimai elmlər və s. öyrənmişdir.

Ensiklopedik biliyə malik olan Katip Çələbinin müxtəlif mövzularda 21-dən çox əsərdən ibarət toplusu var.

Qərb dünyasının elmi əsərlərinə müraciət edən və Qərb elminin bəzi yeniliklərini Türkiyəyə gətirən ilk Osmanlı alimi Katip Çələbi "Qərbə açılan ilk pəncərə" kimi qiymətləndirilərək müstəqil və mütərəqqi düşüncənin ilk müjdəçisi kimi qəbul edilir.

Bu məqalədə Katip Çələbinin həyat və yaradıcılığı haqqında məlumat verilir, onun əsərlərində bəhs etdiyi problemlər işıqlandırılır.

Dünyanın qüdrətli dövlətlərindən olan Osmanlı İmperiyası XVII əsrdə özünün ən çətin, qarışıq və keşməkeşli bir dövrünü yaşayırdı.

XVII əsrə 1590-cı ildən başlayaraq büdcə kəsirləri ilə daxil olan Osmanlı dövlətinin daxilində baş verən intriqalar, idarəçilik sistemindəki çatışmazlıqlar və zəifləmələr, dövlət xəzinəsinin iflasa uğraması, ordudakı özbaşınalıq, ölkənin müxtəlif yerlərində baş verən qiyamlar, Çələbi üsyanları, digər tərəfdən Səfəvilərlə aparılanmüharibələr, imperiyanın tərkibində olan bəzi ölkələrin baş qaldırması, xəzinə üçün əhəmiyyətli gəlir mənbəyi olan Suriyada baş verən Manoğlu Fəxrəddin üsyanı, Krit müharibəsi, Avropa ölkələri ilə aparılan fasiləsiz müharibələr və s. kimi hadisələr Osmanlı dövlətinin maliyyə cəhətdən zəifləməsinə və Osmanlı İmperiyasının da təməlinə zərər vurmağa başlamışdı.

XVI əsrin sonları və XVII əsrin əvvəllərində Osmanlı dövlətində siyasi-ictimai, dini-əxlaqi cəhətdən də nöqsanlar meydana çıxmağa başlamışdır.

Osmanlı dövlətinin öz coğrafi sərhədlərini genişləndirməsi, Avropada meydana gələn iqtisadi və hərbi sahədəki tərəqqilər, ölkədə rüşvətin artması və meydana gələn əxlaqi düşkünlüklər Osmanlı dövlətində ortaya çıxan pozulmaların ən əsas səbəblərindən olmuşdur. Lakin bütün bu çətinliklərə baxmayaraq, elm, ədəbiyyat, mədəniyyət, musiqi, memarlıq sənəti öz ənənəsini, inkişafını davam etdirirdi.

XVII əsrdə xüsusilə ədəbiyyat sahəsində də bir çox yeniliklər özünü göstərmiş, Osmanlı türkcəsində nəsrlə yazılan bir çox qiymətli əsərlər meydana çıxmağa başlamışdı.

Bu dövrdə elmi, ədəbi nəsrlə bir çox tarix, coğrafiya, səyahətnamələr və təzkirə növündə olan unudulmaz əsərlər yazan görkəmli şəxslər Evliya Çələbi, Katib Çələbi, Naima, Peçevizadə İbrahim əfəndi, Koçu bəy, Riyazi, Faizi və s. kimi elm və ədəbiyyat sahəsində tanınmış alim və yazıçılar yetişmişdilər.

Qeyd etdiyimiz kimi, Osmanlı dövlətinin XVII əsrdə yetişdirdiyi məşhur alimlərdən biri də Katib Çələbidir.

**AMEA akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, elmi işçi*

Katib Çələbinin həyatı və əsərləri haqqında istər Osmanlı və istərsə də Cümhuriyyət dövrlərində bir çox tədqiqat əsərləri yazılmışsa da, öz həyatı haqqında müfəssəl məlumatı müəllif öz əsərlərində (“Mizanül-Hakk Fi İhtiyari’l-Ehakk”, “Süllemü’l-Vusul İla-Tabakati’l Fuhul” və s.) qeyd etmişdir.

Bursalı Mehmed, Tahir Şəhrizadənin “Tarih-i Nevpeyda” əsərindən iqtibas edərək Katib Çələbinin h. -1004-cü (m. 1597) ildə anadan olduğunu qeyd etsə də, müəllifin özünün qeyd etdiyinə görə o h. 1007-ci (m.1609) ildə İstanbulun Fateh səmtində anadan olmuşdur.

Əsl adı Abdullah oğlu Mustafa olmasına baxmayaraq, Sultan sarayında mühasib işlədiyinə görə din alimləri arasında Katib Çələbi Həccə getdiyinə görə Hacı Xəlifə və Avropada Hacı Kabfa adı ilə tanınmışdır.

Öz dövründə və sonralar da böyük hörmət qazanmış bu hikmət sahibi, xoş xasiyyətli, mərhəmətli və müstəqil fikirli mütəfəkkir vəzifəsi ilə əlaqədar olaraq yalnız mədrəsəlilər tərəfindən alçaldılmaq məqsədilə o Katib adlandırılmışdı. Çələbi adını isə öz biliyi, tərbiyəsi, qabiliyyətinə görə, ordu ilə müharibələrdə iştirak edərkən bir mühasib kimi işinin öhdəsindən bacarıqla gəldiyinə görə almışdır.

Katib Çələbinin atası Abdullah sarayda yetişmiş bir şəxs olmuş, sonralar hərbi sahəyə, silahdarlıq vəzifəsinə keçmiş, öz dövrünün alim və şeyxlərinin məclislərində daima iştirak edərək elmə böyük maraq göstərmişdir.

Katib Çələbi beş yaşında olarkən atasının xüsusi olaraq tutduğu İsa Xəlifə əl-Kırımidən ilk dini dərslər almış və Quranı qismən əzbərləmişdir. Sonralar İlyas Xocadan dil dərsləri, Böğrü Əhməd Çələbi adlı xəttatdan yazı sahəsində dərslər almışdır.

Artıq o, 14 yaşından atasının yanında çalışmağa başlamış, Saray dəftərxanasından Anadolu Mühasibat idarəsinə şagird olaraq keçmişdir. Burada mühasibat qaydaları, rəqəmlər və siyaqat yazısını öyrənmişdir.

Siyaqat yazısı, Osmanlı dövründə maliyyə, dəftərxana və vəqf təşkilatında işlənmiş bir yazı üsuludur. Osmanlı dövlətində siyaqat yazısı və rəqəmləri xüsusilə maliyyə idarəsinin müxtəlif bürolarında işlənmişdir.

Anadolu Mühasibat idarəsində Anadoluda olan padşah və vəzirlərə aid vəqflərin hesabları qeyd edilir. Həmçinin Anadolu və Rumelidəki bəylərbəyinə ayrılan pullar və torpaq sahələrinin sənədləri verilirdi. Anadoluda Ərzurumdan kənarda olan qalalara ödənən maaşların hesabları da bu idarədə tutulurdu. AnadoluMühasibat idarəsinə şagird kimi qəbul edilən Katib Çələbi qısa bir zamanda öz ağlı və bacarığı sayəsində hörmət qazanmış və buonun gənc olmasına baxmayaraq müharibələrdə Sultanın və ordunun yanında öz vəzifəsi ilə əlaqədar olaraq iştirak etməsinə səbəb olmuşdur. O, 1623-1624-cü illərdə ilk dəfə atasının yanında vəzifəsi ilə əlaqədar olaraq Abaza Paşa üsyanını yatırmaq üçün ordu ilə birlikdə Tərcan səfərinə qatılmışdır. Katib Çələbi 1625-26-ci illərdə isə yenə atası ilə birlikdə Bağdad müharibəsində iştirak etmiş və doqquz ay davam edən mühasirədə qaldıqdan sonra geriyə qayıdan İslam əsgəri ağır, məşəqqətli günlə keçirmişdir. 1626-cı ilin avqust-sentyabr aylarında Mosula yaxınlaşdıqları zaman Katib Çələbinin atası vəfat edir və oradakı “Cami-i Kəbir” məzarlığında dəfn olunur. Bir ay keçdikdən sonra da Nusaybində əmisini də itirir. Tək-tənha qalan Katib Çələbi qohumlarından biri ilə Diyarbakıra gəlir və bir müddət burada qalır. Atasının dostlarından olan Mehmed Xəlifə onu “Süvari Müqabilə”sində işlə təmin edir. “Süvari Müqabiləsi” adlı əsgərlərə, silahdarlar və digər atlı yeniçərilərə verilən məvacib məsələlərinə baxırdı.

Katib Çələbi “Süvari Müqabilə”sində işə başladığı zaman 17-18 yaşlarında olardı və belə bir məsuliyyətli maliyyə işinin öhdəsindən bacarıqla gəlirdi.

1627-ci ildə İstanbula qayıdan Katib Çələbi Qazızadə Mehmed əfəndinin[1] Fateh Camisindəki dərslərində iştirak etməyə başladı.

[1] Qazızadə Mehmed Əfəndi 1582-1635-ci illərdə Osmanlı dövlətində yaşamış bir vaiz olmuşdur. Qüvvətli xitabəti olduğu üçün qısa bir zamanda məşhurlaşaraq 1631-ci ildə Ayasofya Camisinin vaizi təyin olundu. Dövlət işlərindəki çəkişmələrin, pozğunluqların şəriətə zidd hərəkət edilməsi nəticəsində baş verdiyini söyləmişdi. IV Murad dövründə onun fikirlərinin Osmanlı mütəfəkkirləri üzərində böyük təsiri olmuşdur.

1628-ci ildə ordu ilə Ərzurumun mühasirəyə alınmasında iştirak edən Katib Çələbi yetmiş gün davam edən nəticəsiz bir mühasirədən sonra Tokada gələrkən çox qorxunc və əzablı günlər yaşamışdır. O, İstanbula qayıtdıqdan sonra yenidən Qazızadənin dərslərində oturub xitabətlərini dinləmişdir. Qazızadənin dərsləri Katib Çələbidə elmi axtarışlar, araşdırmalar aparmağa böyük həvəs yaratmış və bu dərslərin ona böyük faydası olmuşdur.

1629-cu ildə yenə də Xosrov Paşa ilə birlikdə Həmədan və Bağdad müharibələrində iştirak edən Katib Çələbi, 1631-ci ildə səfərdən qayıtdıqdan sonra yenidən Qazızadənin dərslərinə davam etmişdir. Elmə, oxumağa böyük həvəsi olan Katib Çələbi o dövrün mədrəsələrində dərs kitabları kimi öyrədilən Bəyzavinin “Təfsir”, İmam Qəzzalinin “İhya-i Ulum”, Adudüddin Əbdürrəhmanın “Şərhi-i Məvafiq”, Molla Xosrovun “Dürər” və Mehmed Birgivinin “Tarikat-ı Muhammədiyə” əsərlərini diqqətlə və yorulmadan oxumuş və onlardan bəhrələnmişdir.

1633-cü ildə baş vəzir Mehmed Paşanın komandanlığında olan əsgər qışı keçirmək üçün Hələbə çəkildiyi zaman Katib Çələbi də fürsət tapıb Həcc vəzifəsini yerinə yetirmək üçün ordu ilə Hələbə getmiş, oradan da Hicaza keçmişdir.

Katib Çələbi Hicazdan döndüyü zaman ordu Diyarbakırda olduğu üçün o dabir müddət Diyarbakırda qalmış və buradakı alimlərlə tanış olub onlardan faydalanmışdır. Vəzifəsi ilə əlaqədar olaraq 1634-1635-ci illərdə IV Sultan Murad ilə Rəvan müharibəsində iştirak edən Katib Çələbi Rəvan müharibəsindən əldə etdiyi məlumatları, gördüyü yerləri sonralar yazdığı “Cihannüma” əsərində təsvir etmişdir.

Katib Çələbi on il davam edən müharibə həyatından sonra, özünün də dediyi kimi, artıq “kiçik cihaddan böyük cihada”, yəni düşmənə qarşı aparılan müharibədən cəhalətə qarşı aparılan müharibəyə başladı. Yəni indiyə kimi gördüyü işləri kiçik cihad hesab edən Katib Çələbi əsl böyük cihadın elmə yiyələnmək olduğuna inanırdı və məhz onun əsl elm həyatı da bundan sonra başlayırdı.

O, Hələbdə qaldığı müddətdə qədim əlyazmalar satılan kitab mağazalarında bir çox kitablar görmüşsə də, bunların ancaq adlarını qeyd edə bilmiş, almağa imkanı olmamışdır. Elmi kitablardan daha çox tarix, təbəqat (məşhur adamların həyatı və əsərləri haqqında – E.X.) və vəfəyat – (məşhur adamların ölüm tarixlərini göstərən əsərlər – E.X.) kimi kitablara maraq göstərmişdir.

Katib Çələbi İstanbula gəldikdən sonra, miras olaraq ona çatan pulun çox hissəsini kitaba vermiş, qalan hissəsini də evinin təmirinə və evlənməsinə xərcləmişdi. İkinci dəfə qohumlarından zəngin bir tacirin ölümündən sonra yenə əlinə keçən mirasın çox hissəsini kitablara xərcləmiş, qalan hissəsini də ehtiyaclarına vermişdi.

Kiçik bir gəlirlə dolanan Katib Çələbi ömrünü elmə həsr etmiş, oxumağa, öyrənməyə böyük həvəsi olduğu üçün, çox zaman sabaha kimi şamı sönməmiş və yatmadan kitablar oxumuşdur..

O, İstanbulda Arəc Mustafa əfəndi, Kürd Abdullah əfəndi, Keçi Mehmed əfəndi kimi camilərdə dərs verən din müəllimlərindən islami elmlərə dair dərslər alırdı. Həmin günlərdə gecələr səhərə kimi yorulmadan təfsir, hədis, ədəbiyyat, həndəsə, riyaziyyat, kosmoqrafiyaya dair kitablar oxuyardı.

Dərs demək, öyrətmək, tələbə yetişdirməyi əsas amalı sayan Katib Çələbi daim elmə yiyələnməyi üstün tutmuş və bunu yazdığı əsərlərdə təbliğ etmişdir. O yiyələndiyi elmlər, əldə etdiyi məlumatlar, xüsusilə təbiət elmləri haqqında bəzi tələbələrə də dərslər verirdi.

Katib Çələbi elmlə məşğul olduğuna görə, 1639-cu ildə Sultan (IV) Murad xan Bağdadı fəth etdiyi müharibədə iştirak edə bilməmişdi. Ancaq 1645-ci ildə baş verən Krit müharibəsində iştirak edərək dənizlər və xəritələrə dair araşdırmalar aparmışdır. Bir il sonra dövlət idarəsində səlahiyyətli şəxs olan “Müqabilə” idarəsinin baş katibi ilə rütbəsinin yüksəldilməsinə, II xəlifəliyə keçirilməsinə görə rədd cavabı aldığı üçün aralarında münaqişə yaranmış və Katib Çələbi üç il öz işindən uzaqlaşmışdı. Bu müddət ərzində kitablar oxuyaraq əsərlər yazmaqla məşğul oldu. Bir ara sağlamlığında problem yarandığına görə tibb elmi ilə də məşğul olmağa başlamış, maddi və mənəvi cəhətdən öz dərdinə əlac tapmağa müvəffəq olmuşdur.

Müxtəlif elmlərlə məşğul olmağa başlayan Katib Çələbi Əli Quşçunun riyaziyyata aid əsəri olan “Muhammədiyə”ni oxumuş, ulduz xəritələrindən təqvim elmini öyrənərək “Takvimüt-Tevarih” əsərini yazmışdı. Bu əsər o dövrün Şeyxülislamı Əbdürrəhim əfəndi tərəfindən Baş nazir Koca

Mehmed Paşaya təqdim olunduqdan sonra, Katib Çələbi 1649-cu ildə tərk etdiyi iş yerinə ikinci katib olaraq qayıtsa da, həftədə iki gün işə gələrək qalan vaxtını yenə elmə, təhsilə, əsərlər yazmağa həsr etmişdir. Bundan sonra gərgin və yorulmadan ömrünün sonuna qədər elmi əsərlər yazan Katib Çələbi 1657-ci ildə dünyasını dəyişmişdi. Məzarı İstanbulun Fatih bölgəsindəki Unkapanı tərəfdə Zeyrək Camisi ətrafındadır.

Müxtəlif mövzulara aid 21-dən çox əsər yazan, ensiklopedik biliyə sahib olan Katib Çələbi tarix, coğrafiya, bioqrafiya, avtobioqrafiya, biblioqrafiya, təsəvvüf, tərbiyə, əxlaq, şəriət, sosiologiya, tibb, etnoqrafiya kimi müxtəlif sahələrə aid əsərlər meydana çıxarmış, həmçinin öz dövrünün siyasi, dini və ictimai problemlərinə də toxunaraq yazdığı əsərlərlə bir alim kimi tanınmış və dünyada məşhur olmuşdur. Müxtəlif elmlərə böyük həvəs göstərən və elmə yüksək qiymət verən Katib Çələbi Türkiyə elm tarixində bir mütəfəkkir kimi özünə yüksək mövqe qazanmışdır.

Katib Çələbiyə müasirləri tərəfindən çox yüksək dəyər verilmiş və xüsusilə tarixçilərdən Şəhrizadə (Mehmed Səid) və Naima onun əsərlərindən çox faydalanmışdılar.

Müəllim Cevdət, Katib Çələbiyə heykəl qoyulmasının vacib olduğunu söyləyərək onun Anadolu coğrafiyasına dair yazdığı əsərləri yüksək qiymətləndirmişdir. Fransız alimi Babinger Katib Çələbini böyük Osmanlı tarixçisi kimi qiymətləndirmiş və onu altmış illik həyatında müxtəlif elmlərə aid təxminən 600 əsər yazmış Misirli Cəlaləddin Süyutiyə bənzətmişdir.

Alimin əsərləri o zamanlar fransız, latın, ingilis, italyan, alman dillərinə tərcümə olunmuşdur. O ərəb və fars dillərini gözəl bilməklə yanaşı, latın və fransız dillərini də öyrənərək yazdığı əsərlərində Qərbi Avropa mənbələrindən istifadə etmişdir.

Qərb dünyasının elmi əsərlərinə müraciət edən, Qərb elminin bəzi yeniliklərini Türkiyəyə gətirən ilk Osmanlı alimi Katib Çələbi olmuşdur.

"Qərbə açılan ilk pəncərə" olaraq qiymətləndirilən, müstəqil düşüncənin, müsbət fikirlərin ilk müjdəçisi olaraq qəbul edilən Katib Çələbi bir yazıçı və mütəfəkkir olaraq şəxsiyyəti haqqında çox yazılmış və əsərləri tədqiq olunmuşdur.

Qərbdə olan müsbət elmlərin inkişafına böyük əhəmiyyət verən Katib Çələbi, həmçinin mənsub olduğu Osmanlı-Türk cəmiyyətinin də yüksək tarixə və üstün keyfiyyətlərə malik olduğunu da fəxrlə qeyd edən bir şəxs olmuşdur.

Katib Çələbiyə dünya elm aləmində şöhrət qazandıran əsərlərdən biri coğrafiya mövzusuna həsr olunmuş "Cihannüma" ("Cahanı göstərən") əsəridir.

Katib Çələbi bu əsərini qədim islam coğrafiyaşünaslarından, XVI əsr Türk alimlərinin coğrafiyaya aid əsərlərindən, xüsusilə XVI əsrin tarixçisi və alimlərindən olan Aşiq Mehmed bin Hafiz Ömərin 1597-ci ildə yazdığı "Menazir-ül Avalim" ("Aləmlərin mənzərələri") adlı Anadolu və Rumeli şəhərlərinə aid əsərindən və bəzi Avropa mənbələrindən A.Orteliusun "Theatrum Orbis Terrerum" (1570) əsəri; Ph.Cluverıusun "İntroductio Geographira tam vetera quamnova" əsəri və G. Lorenzo d'Anania"nın "Luniversale fabrica delmonda" (1582) əsərlərindən də faydalanmışdır. (3, s.686)

Müəllif bu əsəri yazarkən Qərb mənbələrindən az istifadə etmişsə də, sonralar xristianlığın islama nisbətən daha üstün olmasını qeyd edən, lakin sonradan Qurani-Kərimi oxuyub mənimsədikdən sonra, Qurani-Kərimin bəlağət və fəsahətinə heyran olaraq müsəlmançılığı qəbul edən, Fransadan Türkiyəyə gəlib burada qalan, coğrafiya elminə yaxşı bələd olan və latın dilini də gözəl bilən Mehmed İhlasi əfəndi adlı bir şəxslə tanış olur.

Katib Çələbi onun fikirlərindən və tərcümə etdiyi kitablardan, xüsusilə coğrafiya sahəsindəki əsərlərdən çox faydalanmışdı.

Müəllif bu əsərini yazarkən bir mənbə olaraq Qərbin əhəmiyyətli kitablarından latın dilində olan "Atlas Major" və "Atlas Minor" adlı əsərlərdən istifadə etmişdir. "Atlas Minor" əsərini əvvəlcə də qeyd etdiyimiz kimi Şeyx Mehmed İhlasi adlı fransız alimi bu əsəri türkcəyə tərcümə etmiş və Katib Çələbiyə anlatmış. O da bu əsəri türkcə yazmış və "Levamiun-Nur" adlandırmışdı, bundan sonra Katib Çələbi əsərin üzünü köçürməyə başlamışdı.

Müəllif bu əsərində dünyanın altı qitəsi haqqında ümumi məlumatlar vermiş, Amerikanın kəşf olunması, dünyanın yuvarlaq olması məsələsini qeyd etmiş, hətta gecə ilə gündüzün bərabər olmadığı yerlərdə oruc vaxtlarının necə təyin ediləcəyi kimi məsələlərə dair öz fikirlərini çatdırmışdır.

Amerikanın kəşfindən Yaponiyaya qədər, Türkiyədə ilk dəfə duyulan məlumatları əhatə edən “Cihannüma” əsərində mənbələrdən faydalanaraq təsvir etdiyi ölkələri, dağları, dənizləri, çayları, bitki aləmini, təbii sərvətləri əks etdirməklə yanaşı, o ölkələrdəki millətlərin adət-ənənələrini, əxlaqi dəyərlərini, siyasi, inzibati vəziyyətlərini də qeyd etmişdir.

Coğrafiyanı yüksək qiymətləndirən, onun insanlara daha çox məlumat verən bir elm olduğunu qeyd edən Katib Çələbi “Cihannüma” əsərini yazmaq üçün vaxtilə səfərlərdə olarkən etdiyi müşahidələrindən də istifadə etmişdir.

Bu əsəri istər Türkiyədə, istərsə də Avropada yüksək qiymətləndirmişlər.

Prof. W.Bartold da bu əsəri yüksək qiymətləndirmiş və göstərmişdir ki: “Bu əsər Avropanın coğrafiyaya aid məlumatı özününkü ilə birləşdirib yazmaq sahəsində ilk təcrübədir. Avropa coğrafiya ədəbiyyatında o zaman belə bir təcrübə hələ olmamışdır (3, s.686). F.Taeschner də “Cihannüma” əsərini “Bir Osmanlı qələmindən çıxmış. Osmanlı ölkələrinin ilk və yeganə sistematik coğrafiyası” deyə qiymətləndirmişdir (3, 686).

Bu əsər “Cosmorama” adı ilə latın dilinə tərcümə edilmişdir.

Müəllif bu əsərini birinci dəfə yazmağa başlayarkən Qərb mənbələrinin məlumatından az faydalandığı üçün belə bir əsəri yarımçıq qoymuş, lakin çoxlu material topladıqdan sonra əsərini bitirməyə ömrü vəfa etməmişdir.

Katib Çələbinin coğrafiyaya aid ən əhəmiyyətli elmi araşdırma kitabı olan “Cihannüma” əsəri ilk dəfə olaraq 1732-ci ildə İstanbulda İbrahim Mütəfərrika tərəfindən çap olunmuşdur.

Katib Çələbi həmçinin tarixə aid əsərlər də yazmışdır ki, bunlardan ən əhəmiyyətliləri “Fəzləkə” (“Xülasə”) və “Takvimüt-Tevarih” (“Tarixlərin təqvimi”) əsərləridir. “Fəzləkə” əsərinin biri ərəb dilində, digəri də türk dilindədir. Əsl “Fəzləkə” əsəri ərəb dilində yazılıb ümumi tarixdən bəhs edir. Türkcə yazılan “Fəzləkə” əsəri isə ərəb dilində yazdığı “Fəzləkə” əsərinə əlavə olaraq yazılmışdı.

Ümumi tarixə dair geniş məlumatları ehtiva edən ərəb dilində olan “Fəzləkə” əsərində Katib Çələbi özünün zəngin və hərtərəfli məlumatlar verən, ensiklopedik biliyə sahib olan bir müəllif olduğunu göstərir.

Müəllif ərəb dilində yazdığı “Fəzləkə” əsərinə “Tarih-i kəbir” (“Böyük tarix”)və “Fəzləkətültəvarih” (“Tarixlərin xülasəsi”) adını da vermişdir.

Türk dilində yazdığı “Fəzləkə” əsərində Osmanlı tarixinin 1591-ci ildən 1655-ci ilə qədər olan dövründəki hadisələrin xronologiyası qələmə alınmışdır. Bu əsərdə hadisələr illərə görə tənzim edilmiş və hər ilin sonunda, həmin ildə ölən dövlət adamları, şairlər, alimlər haqqında qısa məlumat verilmişdir.

Müəllif öz dövründən əvvəlki hadisələrə görə qədim tarix kitablarından faydalanmışdır. Gəncliyində vəzifəsi ilə əlaqədar olaraq Anadolu və Rumelidən bir çox səfərlərə qatılan Katib Çələbi müharibələrdə müşahidə etdiyi hadisələri də “Fəzləkə” əsərində təsvir etmişdir. Gördükləri hadisələri canlı bir şəkildə və diqqəti cəlbedici bir ifadə ilə anlatmışdı.

XVIII əsrin görkəmli tarixçisi Naima ən çox “Fəzləkə” əsərindən faydalanmışdır.

“Takvim-üt-Tevarih” əsəri də, ərəb dilində olan “Fəzləkə” əsərində əlavə olaraq ərəb dilində yazılmış bir əsərdir.

Həzrəti-Adəmdən başlamış 1648-ci ilə qədər baş verən hadisələri xronoloji olaraq qeyd edən “Takvim-üt-Tevarih” əsəri ərəbcə yazılmış “Fəzləkə” əsərinin xronoloji cədvəli sayıla bilər. Əsərə Mehmed Şeyxi, İbrahim Mütəfərrika, Şəmadani-zadə, Əli Suavi tərəfindən əlavələr edilmiş və əsər əlavə ilə birlikdə İbrahim Mütəfərrika tərəfindən çap olunmuşdu. Bu əsər də ərəb, fars və Qərb dillərinə tərcümə edilmişdir. Əvvəlcə də qeyd etdiyimiz kimi, bu əsər Şeyxülislam Əbdürrəhim əfəndinin diqqəti və təşəbbüsü ilə Katib Çələbi “Müqabilə” idarəsində ikinci xəlifəliyə təyin olunmuşdu.

Katib Çələbinin tarixə aid tərcümələri və risalələri də vardır.O “Tərcüme-i Tarih-i Frengi” əsərini Johan Carionun “Chronik” adlı əsərindən Mehmed İhlasi ilə birlikdə tərcümə etmiş və bu əsərə bəzi əlavələr və qeydlər etmişdilər.

“Tarih-i Kostantaniyye ve kayasire” (“Revnaküs-saltana”) əsəri 1579-cu ilə qədər Şərqdə baş vermiş hadisələrdən bəhs edən bir müntəxabat olub Katib Çələbi tərəfindən tərcümə edilmişdir.

Katib Çələbinin Yunan, Roma və xristian tarixindən bəhs edən risaləsi (“İrşadül-hayara ila tarihe’l-Yunan ve’r-Rum ve’n-Nasara”) İslam tarixlərində Avropa haqqında yazılmış yarımçıq və yanlış məlumatlara düzəliş etmək məqsədilə yazılmışdır. Əsərdə Avropa idarə sistemindən bəhs edərkən aristokratiya, demokratiya, cümhuriyyət və s. məsələlərdən də bəhs etmişdir.

Katib Çələbinin həmçinin ərəb dilində yazdığı “Dürer-i Münteşire ve gurer-i münteşire”, “İlham-ül Mukaddes fi Feyzil Akdes”, “Süllemü’l-vüsul ila tabakate’l-fuhul” (əlifba üzrə tərtib edilərək elmi bir metodla yazılmış böyük bioqrafik və qiymətli bir əsər), “Tuhfetü’l-ahyar fi’l-ahkam ve’l-emsal ve’l-eşar” (əlifba üzrə tərtib edilmiş ədəbi və fəlsəfi hekayələr kitabı) və s. kimi ərəb dilində məqalə və risalələri də vardır (10, s.3-4).

Katib Çələbi dənizçilik mövzusuna həsr olunmuş “Tuhfet’ül Kibar fi-Esfari’l Bihar” (“Dəniz müharibələrindən böyüklərə yadigar”) adlı Osmanlı dənizçiliyinə aid əsərini 1656-cı ildə milli bir qeyrət hissi ilə yazmışdır.

Yazıçının bu əsəri yazmaqda məqsədi, Türk dənizçiliyin geriləməkdə olduğunu, qədim dövrlərdəki dəniz qələbələrinin şanlı xatirələrini yada salmaqla dəniz qüvvələrini yeni qüvvə və səylə çalışmağa həvəsləndirmək olmuşdur.

Osmanlı dənizçilik tarixinə həsr olunmuş bu əsərdə 1645-46-cı illərdə Krit adasında baş vermiş müharibədən bəhs edilir.

Müəllif bu əsərdə, Osmanlı dövlətinin ilk dövrlərindən başlayaraq qədim dəniz müharibələrindən, o müharibələrin metod və üsullarından, keçmişdəki qüdrətli kapitanların apardıqları dəniz müharibələrindən söhbət açır.

Osmanlı dənizçiliyi artıq XVII əsrdə öz əvvəlki əzəmətini, qüdrətini itirmiş, Aralıq dənizində başqa qüvvələr peyda olmağa başlamış və Krit müharibəsinin uzanmasında da Osmanlı dənizçilərinin zəifləməsinin böyük təsiri olmuşdur.

Keçmişdəki qüdrətli kapitanların zəfərli dəniz müharibələrini göstərməklə, özünün yaşadığı dövrdəki dəniz məğlubiyyətlərinin qarşısını almaq və kapitanların bundan bir nəticə çıxarmalarının lazım gəldiyini qeyd etmişdir. Müəllif hətta Krit müharibəsində edilən yanlış hərəkətlərə işarə edərək kitabın sonunda vəsiyyət bölümündə 40 nəsihət vermişdir (1, s.684).

Katib Çələbi Osmanlı dənizçiliyinin əzəmətli dövrlərini başda Barbaros Xeyrəddin Paşa olmaqla, Türk dəniz qəhrəmanlarının zəfərlərini təsirli bir dil ilə təsvir edərək, Osmanlı dənizçiliyinin yenidən əvvəlki vəziyyətə qayıtmalarını arzu edərək bu əsəri yazmışdır.

1653-cü ildə Osmanlı dövlət büdcəsinin ağır vəziyyətə düşməsi səbəblərini araşdırmaq və büdcə kəsirinə bir çarə tapmaq və məsələni həll etmək üçün təşkil olunan məşvərət məclisinə bir mütəxəssis kimi Katib Çələbi də dəvət olunmuşdu.

O, bu toplantıda özünün ictimai və iqtisadi sahəyə aid fikirlərini söyləmiş, Osmanlı dövlətinin durğunluq dövrünə qədəm qoyması, dövlət idarəçilik sistemindəki çatışmazlıqlar, nizam-intizamın pozulması, maliyyə sistemindəki geriləmələri tənqid etmişdir.

On iki il davam edən müharibələrdə etdiyi səfərlər zamanı bütün kəndlərin xaraba qaldığını, rəiyyətin ağır vəziyyətdə olduğunu öz gözləri ilə görmüş, buna da zəif idarəçiliyin nəticəsində özbaşınalığın yaranması, ağır verginin tətbiq olunması və rüşvətin də çox olmasını əsas səbəb olaraq göstərmişdir.

Sarayda maliyyə sahəsində işlədiyi müddət ərzində bir çox təcrübələr toplayan və keçmiş tarixləri də araşdıran K.Çələbi 1653-cü ildə müqəddimə, üç fəsil və nəticədən ibarət “Düstürü’l-Amel fi İslahi’l-Halel” (“Nizamsız işlərin islah olunmasında əməl olunacaq qaydaları”) adlı layihəsini yazmışdır.

Müəllif əsərində üsyan və ixtilafların hansı maddi və mənəvi şəraitdə baş verməsini araşdırır, bunun qarşısını almağın və islah olunmasının çarələrini göstərir. O həmçinin büdcənin tarazlaşdırılması, xəzinə gəlirlərinin artması, çoxalan əsgərlərin bəslənməsi, məsrəfdən qacınılması, xalqın üzərinə ağır verginin qoyulmaması kimi məsələlərə dair öz cəsarətli fikirlərini də söyləyir.

Katib Çələbi bu risalədə həmçinin dövlətin öz varlığını qoruyub saxlamaq üçün lazım olan tədbirləri göstərmiş, dövlətin süqut etməsinə səbəb ola biləcək cəhətləri bir-birinin ardınca aydın şəkildə ortaya qoymuşdur.

Müəllif Osmanlı dövlətində siyasi, dini, əxlaqi və ictimai sahədə baş verən qarışıq, intizamsız vəziyyəti dərk edərək bu məsələləri əsərində əks etdirməklə kifayətlənməyib, bu çatışmazlıqların nizama salınmasına çarələr də axtarmışdır.

Dövlət adamlarının istifadəsi üçün 1653-cü ildə hazırlanmış bu layihə Şeyxülislam Hüsamzadə əfəndiyə verilmişdir. Bu layihə Şeyxülislam Hüsamzadə əfəndi tərəfindən yazıldıqdan üç il sonra Sultan IV Mehmedə təqdim olunmuşdur.

O zaman tarixçi Naimanın da istifadə etdiyi bu layihə 1863-cü ildə Şinasi tərəfindən "Tasvir-i Efkar" qəzetində təfriqə edilmişdir.

Katib Çələbinin elm və ədəbiyyat sahəsindəki dərin düşüncələrini və elmi biliyini sonrakı əsrlərə çatdıran, unudulmaz "Kəşfü'z-Zununun Esami'l Kütübi ve'l fünun" ("Kitab adları və elmlərin mövzuları haqqındakı şübhəni qaldıracaq əsər") adlı ərəbcə əsəridir.

Müəllifin təxminən iyirmi il üzərində böyük səylə çalışaraq tamamladığı ən əhəmiyyətli əsəri, İslam düşüncəsi və elm ənənəsinin yenidən kəşf olunmasına həsr olunmuşdur. Müəllif bütün əsərlərində olduğu kimi, bu əsərdə də öz dini görüşlərindən bəhs etmişdir. Bu əsərdə hikmət maddəsini izah edərkən fəlsəfə ilə şəriət arasındakı əlaqə haqqında öz fikirlərini çatdırır. Bütün elmlərlə yanaşı fəlsəfəyə də müsbət münasibəti olmuş, onun dini düşüncələrini fəlsəfə düşüncələrindən ayrı düşünmək mümkün deyil. Bu bir biblioqrafiya lüğəti olub. 10000 əsər müəllifi və 15000-ə yaxın əsərin də mövzusu haqqında məlumat verir.

Katib Çələbi bu kitabı ilə təkcə Osmanlı-Türk aləminin deyil, XVII əsr dünya elminin yeganə böyük biblioqrafiya alimi olduğunu göstərmiş və çox ciddi bir metodla çalışaraq bugünkü Qərb elmini xatırladan bir tədqiqat əsərini meydana çıxarmışdır.

Bu əsərdə əvvəlcə elmin tərifi verilmiş, elmin bölümləri və İslam elmləri haqqında məlumatlar verilmişdir. Həmçinin bu əsərdə 300-ə yaxın müxtəlif elmlərin təsnifi qeyd edilmişdi.

Yazıçının bu əsərində bəhs etdiyi kitablar, onun elmi araşdırmaları zamanı şəxsən özünün oxuduğu və faydalandığı, müxtəlif dillərdə yazılmış kitablardır.

Müəllifin adını çəkdiyi əsərlərin içərisində elm aləminin hələ nüsxəsinə təsadüf etmədiyi əlyazmalar olmaqla yanaşı, onun özünün tanış olduğu kitablar haqqında verdiyi məlumatların bir qismi hələ də öz aktuallığını və dəyərini qoruyub saxlamaqdadır.

O "Kəşfüz-Zunun"... əsəri ilə XVII əsrin ilk yarısında Qərb aləmindəki elmi inkişafı müəyyən dərəcədə mənimsəmiş bir Osmanlı-Türk ziyalısı kimi, öz elmi adətinə əsaslanaraq ölkəsində də elmin canlanmasının ilk təşəbbüsçüsü olmuşdur.

Bu kitab təkcə əhatəli klassik əsərlər biblioqrafiyası olmayıb, eyni zamanda bir elmlər ensiklopediyasıdır.

Müəllif bu ensiklopediyanın öz sözündə İbn Xaldunun məşhur "Müqəddimə" əsərindən faydalanaraq elmin əhəmiyyətindən bəhs etmiş, elmlərin təsnifini vermişdir.

Alimin bu əsəri əvvəlcə Türk-İslam aləmində diqqəti cəlb etmiş, bu əsərə bir çox əlavələr yazılmışdır. "Keşfü'z-Zunun" əsəri məşhur şərqşünas alim Flüqel tərəfindən iyirmi üç il müddətində (1835-1858) ərəbcə mətnlə birlikdə latın dilinə tərcümə edilmiş, Leypsiq və Londonda 7 cild halında çap edilən bu əsər sonralar alman və ingilis dilinə də tərcümə edilmişdir. Avropa alimləri öz tədqiqat işlərində bu əsərdən bir mənbə kimi istifadə etmişdilər.

Son olaraq Türkiyədə Maarif Nazirliyi tərəfindən prof. Şərafəddin Yaltkayanın nəzarəti və şərhləri ilə mükəmməl olaraq 2 cild halında çap olunmuşdur.

Katib Çələbinin son əsəri olan "Mizanül-Hakk Fi İhtiyari'l Ehakk" ("Ən doğru yolu seçmək üçün Haqq tərəzisi") 1656-cı ildə yazılmışdır.

Müəllif adından da bəlli olduğu kimi dini, əxlaqi, ictimai, hüquqi, estetik və s. kimi sahələrdə ən doğru yolu seçmək üçün öz haqq tərəzisini ortaya qoymuşdur.

Katib Çələbinin yaşadığı XVII əsrdə Osmanlı dövlətində siyasi və iqtisadi cəhətdən meydana gələn çatışmazlıqlar, çətinliklər ictimai həyatda da hiss olunmağa başlamışdır. Bu dövrdə din adamları da iki cəbhəyə ayrılmış, heç bir dini və elmi qiyməti olmayan bir sıra məsələlər haqqında münaqişəyə başlamış, bunun nəticəsində din adamları bir-birini ittiham etməyə və bir-birlərinə kin bəsləməyə başlamışdılar.

Osmanlı dövləti yarandığı gündən XVI əsrin sonlarına kimi təkkələrlə mədrəsələr arasında möhkəm əlaqələr olub. Bu iki qurum bir-birinin alternativi olmayıb, əksinə bir-birini tamamlamış və həmfikir olaraq fəaliyyət göstərmişdilər. Həmçinin bir çox mədrəsə müəllimi eyni zamanda təkkə şeyxi olmuşdu.

Lakin XVII əsrin ortalarından başlayaraq mədrəsə ilə təkkə arasında fikir ayrılığı yarandığı üçün sonda münaqişələrə gətirib çıxarmışdır.

Qazızadə Mehmed əfəndi bir çox dini məsələlər ətrafında mübahisələrə başlamış və ətrafına bir çox tərəfdarlar topladığı üçün bunlara Qazızadələr deyilmişdi. Təkkə və sufiləri təmsil edən Əbdülməcid Sivasi Qazızadənin fikirlərinəqarşı çıxmış və sərt ittihamlarla cavab vermişdir. Sivasinin də tərəfdarlarına Sivasilər adı verilmişdir.

Beləliklə, XVII əsrdə Osmanlı dövlətində baş verən ən böyük hadisələrindən biri də Qazızadələr – Sivasilər münaqişəsi olmuşdu.

İslam dininə sonradan daxil olan bidətlərdən dinin təmizlənməsinin zəruri olduğunu söyləyən mədrəsə əhli bir çox məsələlərdə təkkələri və sufiləri kəskin tənqid etmişlər. Sufilər də bu tənqidi fikirlərə biganə qalmayıb bunlara eyni sərt cavablar verdikləri üçün aralarında münaqişə baş vermişdi.

Mədrəsəni təmsil edən Qazızadələr müsbət elmlərin və fəlsəfənin mədrəsədə öyrədilməsinin qadağan olunması fikrini irəli sürmüşlər. Həmçinin Xızırın (ə.s.) həyatda olması məsələsi, musiqi, dini rəqs olan səmanın oynanılması (sufilərin dövr edərək oynamaları), əzan, Mövlud və Quranın muğamla oxunması, təsliyə (salavat çevirmə), tərziyə (etdiyi günaha görə üzr istəmə), türbə və qəbir ziyarəti, tütün çəkmək və qəhvə içmək, əllə görüşmək, təzim etmək və s. kimi məsələlərə mənfi münasibət bəsləmiş, bunların tamamilə küfr və haram olduğunu, ayrıca Rəsul-Əkrəmin (s.ə.v.) valideynlərinin və İbn Ərəbinin imansız olduqlarını, Firounun imanı qəbul edilmişdirmi? Yezidə lənət oxumağın caiz olması kimi fikirlər söyləmişdir. Əbdülməcid Sivasi isə bu məsələlərdə Qazızadəyə qarşı çıxmış və sərt ittihamlarla cavab vermişdi.

Beləliklə, bu mübahisələr mədrəsə - təkkə, din müəllimi - şeyx, molla - dərviş münaqişəsinə çevrilmişdi.

Dinin təməlini təşkil etməyən, bir çox məsələlərə görə bir-birini ağır ittihamlarla günahlandıran bu iki tərəfin təmsilçilərinə bitərəf qalaraq qarşı çıxan və müsəlmanlar arasında baş verən bu fitnəni söndürməyə çalışan bir çox sağlam düşüncəli şəxslər olmuşdur və bunların başında da Katib Çələbi olmuşdur. O, yaranmış bu münaqişəli məsələləri yoluna qoymaq, ifrata varanlarla laqeyd qalanlara soyuqqanlı olmağı, orta bir yolla getməyi göstərmək üçün Mizanül-Hakk..." əsərini yazmışdı.

Alim bu əsərində münaqişəyə səbəb olan 21 mövzuya maddə-maddə toxunmuş, hər iki tərəfin də qəbul edə biləcəyi orta yolu göstərərək bu münaqişənin həll olunma yolunu qeyd etmişdir.

Katib Çələbiyə görə bu münaqişənin təməlində siyasi, iqtisadi və ictimai sahələrdə çatışmazlıqlar olmaqla yanaşı, əsas səbəb də mədrəsələrdə fəlsəfə və müsbət elmlərin öyrədilməsinin qadağan edilməsidir.

Müəllif mənəvi elmlərlə yanaşı müsbət elmlərə də yüksək dəyər vermiş və Katib Çələbinin bu əsərini "müsbət elmlərin və fəlsəfənin bir müdafiənaməsi deyə qiymətləndirmişlər. (3, 687)

Katib Çələbi bu əsərdə bəzi ictimai məsələlərə tənqidi yanaşmış, müsbət elmlərin vacibliyindən bəhs edərək, XVII əsrdə mədrəsələrin əhval-ruhiyyəsini və fanatizmə yuvarlanmalarını aydın şəkildə göstərmişdir. O mədrəsə - təkkə arasındakı münaqişədə bitərəf qalaraq mübahisəli məsələlə-

rin həll olunmasında ayələr, hədis və din müəllimlərinin ictihadlarına əsaslanaraq öz fikirlərini bildirmişdir.

Məs.: Peyğəmbərin (s.ə.v.) ata-anasının imanlı olaraq rəhmətə getmələri məsələsindən bəhs edərkən Tövbə surəsi, 113 ayəni dəlil olaraq gətirmiş və din alimlərin bu ayə haqqındakı fikirlərini çatdırmışdır.

Katib Çələbiyə görə Peyğəmbərlərin valideynlərinin mömin olmasına ehtiyac yoxdur. Alimlər əslində bu məsələnin ixtilaf səbəbini bilirlər və ona görə də hərəkət edirlər. Avam xalq isə bu məsələ haqqında yaxşı fikirdə olmalı, bu mövzuda artıq əksik danışmamalı və "Peyğəmbərin (s.ə.v.) atası və anası imansız getmişdir" kimi ədəbsiz sözlər deməməli və dillərinə hakim olmalıdırlar. Müəllif bu məsələyə yanaşma və münasibət fərdi olmalıdır" deyə tövsiyə etmişdir.

Müəllif bu əsərində mübahisəli bütün mövzuların ağıl və kamalla, təmkinlə həll olunmasını müdafiə edərək bir mütəfəkkir olaraq çıxış etmişdir.

Elmə yüksək qiymət verən, elmin ictimai həyatın davamı baxımından böyük əhəmiyyətə malik olduğunu qeyd edən Katib Çələbi dinlə həyat arasında sağlam bir əlaqə yaratmağın ancaq elm yolu ilə mümkün olduğu fikrini müdafiə etmişdir.

Beləliklə, "Mizanül-Hakk..." dövründəki münaqişələrin elmi yolla həll olunmasına çarə axtaran və dövlət adamlarına yol göstərən bir əsərdir.

Əsərin sonunda alim öz həyatı haqqında da məlumat və bir neçə tövsiyələr vermişdir. Bu əsər istər Şərqdə, istərsə də Qərbdə alimlərin diqqətini cəlb etmiş və bu əsərdən öz tədqiqatlarında bir mənbə kimi istifadə etmişlər.

Bu əsər Ca.L.Lewis tərəfindən "Balance of Truth" adı ilə ingilis dilinə tərcümə edilərək 1957-ci ildə Londonda nəşr edilmişdir.

"Mizanül-Hakk..." əsəri daima öz əhəmiyyətini və dəyərini qoruyacaq İslam klassiklərindəndir.

Bu əsər Sinasi tərəfindən əvvəlcə "Təsviri-əfkar" qəzetində təfriqə halında çap olunmuş, sonra 1864-cü ildən başlayaraq müxtəlif illərdə üç dəfə kitab halında nəşr olunmuşdur.

Sonralar bu əsər Gökyay Orhan Şaik tərəfindən sadələşdirilərək izahlar və lüğətilə 1972-ci ildə çap olunmuşdur.

2015-ci ildə isə Süleyman Uludağ tərəfindən də sadələşdirilmiş halda şərhlər və izahlarla nəşr olunmuşdur.

Katib Çələbinin bundan əlavə də tərcümələri və risalələri də olmuşdur ki, o rəhmətə gedərkən mirası satıldığı zaman kitablarının bir hissəsi itmiş, bir hissəsi də kitabxanalara verilmişdir.

## ƏDƏBİYYAT


1. Ahmet Kabaklı. Türk edebiyatı. II cilt. İstanbul, 1997.
2. Aydın Abi Aydın. Türkiyə ədəbiyyatı tarixi. II cild. Bakı, 2010.
3. Nihat Sami Banarlı. Resimli türk edebiyatı tarihi, cilt I, İstanbul,1998.
4. Ferzende İdis. Katip Çelebinin "Mizanül-Hakk" adlı eserinde Kadırzadeler-Sivasiler mücadelesi. Uluslararası sosyal araşdırmalar dergisi, cilt 8,sayı 39, 2015.
5. Hasan Ocak – Siyaset, Toplum Felsefesi, Ahlakı Açısından Katip Çelebide Ulema ve Umeranın Yeri. Mizanül-Hakk-İslami ilimler dergisi-sayı 1, İzmir, 2015.
6. Ali Apali "Katip Çelebinin eserlerinde mesleyinin izleri".Mehmed Akif Ersoy Universitesi. Sosyal Bilimler Enstitüsü dergisi. Cilt 7, sayı 13, 2015.
7. İsmail Özçelik – Katip Çelebinin penceresinden Osmanlı Devlet ve Toplum Hayatına ilişkin bazı düşünceler. Ulakbilge, 2017, cilt 5, sayı 9.
8. Doç.Dr.İlhan Kutluer – Katip Çelebi ve Bilimler. "Keşfüz-zunun"un Mukaddimesinde "el-ilm".M.U.İlahiyat Fakültesi Dergisi (18) 2000.

***РЕЗЮМЕ***

***Эмилъя ХАЛИЛОВА***

***О жизни и творчестве известного турецкого мыслителя XVII века***

**_Ключевые слова:_** *XVII век, Османская империя, писарь, Катип Челеби, мыслитель, счетовод*

Катип Чалаби, живший в XVII веке, изучал библиографию, историю, географию, шариат, суфизм, этику, государственное управление, право, финансы, морское дело, общественные науки и т. д. Он является одним из всемирно известных турецких ученых с его работы на полях.

Обладая энциклопедическими знаниями, Катип Чалаби имеет коллекцию из более чем 21 работы на различные темы.

Первый османский ученый Катип Чалаби, который апеллировал к научным трудам западного мира и привнес в Турцию некоторые новшества западной науки, был оценен как «первое окно на Запад» и признан первым глашатаем независимого мышления и позитивные идеи.

В данной статье представлена информация о жизни и творчестве Катипа Чалаби, а также освещены проблемы, которые он обсуждает в своих произведениях.



***SUMMARY***

***Emilya KHALİLOVA***

***On 17th Century Famous Turkish Thinker Katip Chalabi's Life and Works***

**_Keywords:_** *$17^{th}$centry, Ottoman empire, clerk, Katip Chalabi, thinker, accountant*

KatipChalabi, who lived in the 17th century, studied bibliography, history, geography, sharia, Sufism, ethics, public administration, law, finance, maritime affairs, social sciences, and etc. He is one of the world-famous Turkish scholars with his works in various fields.

The great polymath Katip Chalabi is of a twenty-one book collection covering different areas. The first Ottoman scholar, who appealed to the scientific works of the Western world and brought some innovations of Western science to Turkey, was assessed as the "first window to the West" and was accepted as the first herald of independent thinking and positive ideas.

This article provides information about the life and works of Katip Chalabi, and highlights the problems he discusses in his works.